# Yolların Yenidən Qurulması və Müasirləşdirilməsi Layihəsi

| | |
|---|---|
| Ölkə: | Azərbaycan |
| Layihə No : | 43094 |
| Biznes sektoru: | Nəqliyyat |
| Bildiriş növü: | İctimai |
| Ətraf mühit üzrə kateqoriya: | A |
| İdarə heyəti tərəfindən baxılmasının nəzərdə tutulan tarixi: | 6 Dekabr 2011-ci il |
| Status: | İmzalanıb |
| LİS açıqlanıb: | 21 Sentyabr 2011-ci il |

*Orijinal LİS*

*Zəhmət olmasa, qeyd edin: LİS 9 Avqust 2016-cı ildə yenilənib*

## Bu LİS -nin tərcümə olunmuş versiyası: Azərbaycan dilində

## Layihənin Təsviri

Azərbaycan hökuməti (GoAz) öz qonşuları ilə ticarət və regional əməkdaşlığı, o cümlədən bütövlükdə ölkə üzrə iqtisadi inkişafı asanlaşdırmaq üçün əsas nəqliyyat dəhlizlərinin bərpa və yenidən qurulmasına üstünlük verməyə davam edir.

2011-ci ilin dekabr ayında ilkin olaraq Bankın Direktorlar Şurası tərəfindən təsdiq edilən bu Layihə ayrıca hüquqi ekspertiza ilə hər biri 250 milyon ABŞ dolları miqdarında olan üç kredit tranşından ibarətdir və hər bir tranş üçün tələb olunan İdarə heyətinin razılığı verilməli və ödənilməlidir. 250 milyon ABŞ dolları miqdarında olan Tranş 1 Mingəçevir – Bəhramtəpə avtomobil yolunun (R18) hissəsinin bərpası üçün 2011-ci ilin dekabr ayında Kredit sazişinin imzalanması ilə təsdiqlənmiş və həyata keçirilmişdir. Bu komponent hal-hazırda icra olunmaqdadır. Bəhramtəpə - Biləsuvar avtomobil yolunun (R42) hissəsinin bərpası üçün Tranş 2 hissəsi 2013-cü ilin dekabr ayında təsdiqlənmiş və həyata keçirilmişdir, lakin ödənişi həyata keçirilməmişdir.

2015-ci ilin dekabr ayında Azərbaycan hökuməti Bankdan qalan kreditlərin ödənilməsini və Gəncə (Azərbaycanın ikinci ən böyük şəhəri) və Gürcüstan sərhədi arasında yerləşən magistral yolun (M2) 130 km-lik hissəsinin tamamlanması və ikiyə bölünməsi üçün Tranş 2 və 3 çərçivəsində bütün vəsaitlərin yenidən ayrılmasını tələb etmişdir. Bu tələb AYİB-nün İdarətmə və Direktorlar Şurası tərəfindən rəsmi təsdiqlənməlidir (təsdiqlənməsi 2016-cı ilin oktyabr və noyabr aylarında gözlənilir).

## Layihənin məqsədləri

M2/E60 magistral yolu Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin (TRACECA) bir hissəsini təşkil edir və Azərbaycan üçün əsas beynəlxalq ticarət marşrutu hesab olunur. Bu magistral yolu Bakıdan kənarda yerləşən regionların iqtisadi inkişafına dəstək və beynəlxalq ticarətin inkişafını artırmaq (qlobal iqtisadiyyata qoşulması və inteqrasiyası) üçün milli avtomobil yol şəbəkəsinin müasirləşdirilməsinə dair Hökümətin prioritet proqramının bir hissəsidir.

Layihənin əsas məqsədi iqtisadi inkişafı asanlaşdırmaq üçün əsas regional və beynəlxalq yol qovşaqlarının müasirləşməsinə dəstək olmaqdır. Layihə bugünədək avtomobil yolu sektorunda əldə olunan tərəqqi islahatına əsasən qurulacaq və (Dünya Bankı və Asiya İnkişaf Bankı ilə yanaşı) Banka Azərbaycanda yerli hakimiyyət orqanları ilə uzunmüddətli əməkdaşlığın gücləndirilməsinə imkan yaradacaq və avtomobil yolu sektorunda növbəti islahatlara yol açacaqdır.

## Keçid dövrünün təsiri

Təklif olunan Layihə xərclərin ödənilməsi prinsipini yaxşılaşdıraraq, özəl sektorun avtomobil yolu şəbəkəsinin istismar və nəzarət olunmasında iştirakına dəstək olaraq, o cümlədən qeyri-BMİ maliyyələşdirilən investisiya üçün satınalma, həyata keçirmə və nəzarət standartlarını gücləndirərək və Azəravtoyol üçün satınalma və həyata keçirmə təlimat kitabçasının yoxlanılmasına dəstək olaraq sektorun institusional gücləndirilməsini yaxşılaşdırmağa davam edəcəkdir.

Keçid sazişlərinin sayı hər bir kredit tranşına aid edilir və həmçinin növbəti kredit tranşı üçün əvvəlki şərtlər kimi fəaliyyət göstərir. Bu struktur sektor islahatına dəstək olmağa çalışır və regional avtomobil yol şəbəkəsinin idarə olunmasını, istismarını və nəzarət olunmasını tələb olunan səviyyəyə gətirib-çıxartmaq üçün avtomobil yol sektorunun maliyyələşməsi və idarə olunmasını yenidən balanslaşdırmağı ön planda saxlayır. Kredit sazişi ilə bağlı Layihənin keçid məqsədləri Azərbaycanın yol sektorunda institusional islahata dəstək göstərir və fəaliyyətin nəticələrindən asılı olan texniki-təmir müqavilələri ilə başlayaraq daha böyük özəl sektorda iştirakına tədrici növbə yaradır.

## Müştəri

AzərAvtoYol (əvvəllər AzerYolServis – AYS olaraq adlanırdı), dövlət yol agentliyi.

## AYİB Maliyyə

Üç tranşda hər biri 250 milyon ABŞ dolları olmaqla, ümumilikdə 750 milyon ABŞ dolları olan olduqca böyük miqdarlı kredit.

## Layihənin Dəyəri

900 milyon ABŞ Dollarına qədər.

# Ekoloji təsir

Birinci tranş Mingəçevir – Bəhramtəpə avtomobil yolunun (R18) 156 km uzunluğundakı hissəsinin bərpasını əhatə edir. AYİB Ətraf Mühitin Qiymətləndirilməsini və Yoxsulluğun və Sosial Sahənin Qiymətləndirilməsini nəzərdən keçirib. Bankın ətraf mühit üzrə mütəxəssisi tərəfindən aparılan yoxlama və sahəyə səfər, demək olar ki, yolun bütün bərpa işinin cari nəqliyyat dəhlizi çərçivəsində baş tutacağını, ekoloji və sosial təsirlərin yerli şəraitdən asılı olduğunu və adi təsirlərin azaldılması və idarə olunması tədbirləri vasitəsilə həll edilə biləcəyini göstərdi. Tranş 1 Bankın Ekoloji və Sosial Siyasətinə (2008-ci il) uyğun olaraq B kimi təsnif edilmişdir. Avtomobil yolunun (R18) hissəsinin bərpası yerli icma və müəssisələr üçün mühüm faydaları olacaqdır. Avtomobil yollarının çoxu hal-hazırda çox pis vəziyyətdədir, o cümlədən, bu, yolda gediş-gəlişin azalmasına və səyahət müddətinin artmasına gətirib çıxardır. Bərpa işləri bu vəziyyəti yaxşılaşdıracaq və xəbərdarlıq işarələri, yol işarələri, ötmə zolaqları və müvafiq sürət hədləri kimi yeni yol təhlükəsizlik xüsusiyyətlərini təqdim edəcəkdir. Əsas ekoloji və sosial təsirlər tikinti işləri mərhələsində baş tutacaqdır və tam məsuliyyətin müştərinin (Azəravtoyol) üzərinə düşməsinə baxmayaraq, buna tikinti işləri üzrə podratçı tərəfindən nəzarət olunacaqdır. Layihənin uğurla başa vurulması üçün podratçının idarə olunması buna görə də mühim məsələdir. Ekoloji və sosial tələblər layihənin tender sənədlərinə, tikinti müqavilələrinə və Ekoloji və Sosial Tədbirlər Planına (ESTP) daxil edilir və bu da öz növbəsində, Azəravtoyolun məsləhətçiləri tərəfindən hazırlanan idarəetmə planını və AYİB-nin Texniki Tələblərinə riayət olunmasına nail olmaq üçün əlavə tədbirləri kombinasiya edir.

Gəncə - Qazax – Gürcüstan sərhədi aralığındakı magistral yolu A kimi təsnif edilir (2014 ESP). Yolun uzunluğunun genişləndirilməsi və bir neçə yeni ikinci yolun tikilməsinə əsasən bu Layihə tam Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsini tələb edərək A kimi təsnif edilib. ƏMTQ milli razılıq məqsədlərinə əsasən, 2014-cü ildə layihə üzrə hazırlanmış və 2015-ci ilin sentyabr ayında Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müsbət qərar verilmişdir. AYİB öz tələblərinə qarşı ƏMTQ-nun yoxlanılması, layihə üzrə sahəyə səfərlərin təşkil olunması və Qeyri-texniki Xülasə (QTX), Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP) və Ekoloji və Sosial Tədbirlər Planının (ESTP) hazırlanması üçün ekoloji və sosial məsləhətçiləri cəlb etmişdir. Bu, ƏMTQ ilə yanaşı, AYİB və Azəravtoyolun veb saytında, o cümlədən layihə marşrutu boyunca sahələrdə təmin edilmişdir.

Layihənin həyata keçirilməsi daha asan və daha təhlükəsiz səyahətə imkan yaradacaq. Xüsusilə, nəqliyyat axınının iki hissəyə bölünməsi və ayrılması ön toqquşmaların, o cümlədən yol nəqliyyat hadisələrinin və ölüm hallarının sayını əhəmiyyətli dərəcədə azaldacaqdır. Layihənin dizaynının ən yaxşı təcrübələrə əsaslanan təhlükəsizlik standartlarına uyğun olduğunu təmin etmək üçün yolun təhlükəsizlik auditi həyata keçiriləcəkdir. İkinci yolların təqdim olunması şəhər və kənd mərkəzlərindən nəqliyyat axınını azaldacaq və nəticə etibarı ilə səs-küyün, sıxlığın azalması və havanın keyfiyyətinin yaxşılaşması ilə nəticələnəcək.

Layihə marşrutu alternativlərin təhlilinə əsasən seçilmişdir və eyni zamanda təsirlərin azaldılmasına lazımi diqqət yetirir. Marşrut inkişaf etmiş kənd təsərrüfatı torpaqlarından keçdiyindən ekoloji təsirlərin minimum həddə çatması və ya ekoloji təsirlərin asan müəyyən və idarə oluna bilməsi gözlənilir. Həssas yaşayış məskənləri və ya mühafizə olunan sahələrə təsir olunmayacaq.

Yolların genişlənməsi və ikinci yolların tikilməsi üçün torpaqların alınması tələb olunur və bir sıra təsərrüfat və müəssisələrin köçürülməsinə ehtiyac yaranacaqdır. Torpaqların alınması üçün məlumatların toplanması Layihə marşrutunun keçdiyi dörd rayondan üçündə tamamlanıb və dördüncü rayon üzrə də işlər davam etdirilir. Köçürülmə üzrə Tədbirlər Planı (KTP) hazırlanır. İctimai məsləhətləşmənin ilkin mərhələsi 2011-ci ildə tamamlanmış və köçürülmə və kompensasiya prosesi haqda birbaşa təsirə məruz qalan təsərrüfatlarla ən son müzakirələr aparılmışdır. İnşaat layihəsinin başlanğıcında daha möhkəm ictimai məsləhətləşmə mərhələsinin aparılmasına ehtiyac vardır.

ƏMSSTQ və MTQƏP-nun həyata keçirilməsi layihənin AYİB-nin Texniki Tələblərinə cavab verməsinə imkan yaradacaq. KTP və ictimai məsləhətləşmə üzrə tələblərdən əlavə olaraq, ƏMSSTQ Azəravtoyol və podratçıların müvafiq ətraf mühit, təhlükəsizlik və sosial sahənin idarə olunması planlarını hazırlamasını və həyata keçirməsini təmin etmək üçün tədbirləri müəyyənləşdirir. AYİB layihənin həyata keçirilmə bölmələri vasitəsilə təşkil olunan irəliləmə hesabatları ilə Layihənin həyata keçirilməsinə nəzarət edəcək.

Bu layihə üzrə Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi mövcuddur.

# Texniki Əməkdaşlıq

Layihənin həyata keçirilməsinə dəstək olmaq üçün (i) Avropa İttifaqı Qonşuluq İnvestisiya Mexanizmi (QİM) və Layihənin sektorunun islahat komponentlərinə dəstək olmaq üçün (ii) Səhmdarların Xüsusi Fondu ilə texniki əməkdaşlığa dəstək göstərilir.

# Biznes imkanları

İşgüzar fəaliyyət imkanları və ya tədarük məsələləri ilə əlaqədar olaraq sifarişçi şirkətlə əlaqə saxlayın.

Dövlət sektorunda həyata keçirilən layihələrlə tanış olmaq üçün AYİB-nin Tədarük şöbəsi ilə əlaqə saxlayın: Tel.: +44 20 7338 6794
E-poçt: procurement@ebrd.com

# Ümumi rekvizitlər

AYİB-nın layihə haqqında tədarükə aid olmayan sorğuları:
Tel.: +44 20 7338 7168
E-poçt: projectenquiries@ebrd.com

# İctimai İnformasiya Siyasəti (İİS)

İİS-də AYİB-nin öz strategiyaları, siyasətləri və əməliyyatlarının daha yaxşı bilinməsi və başa düşülməsini təşviq etmək üçün öz səhmdarlarına məlumat açıqlaması və onlarla məsləhətləşməsi qaydası təsbit olunur.

İİS-nin mətni

# Layihə üzrə Şikayət Mexanizmi (LŞM)

AYİB bir və ya daha çox şəxsin və ya təşkilatın Bank tərəfindən maliyyələşdirilən və ətrafa zərər verdiyi iddia olunan və ya həqiqətən ətrafa zərər verən layihələr haqqında şirkətlərinin müstəqil mütəxəssislər tərəfindən araşdırılmasına imkan yaratmaq məqsədilə Layihə haqqında şikayətlərin araşdırılması mexanizmini (LŞAM) təyin edib.

## Layihə üzrə Şikayət Mexanizmi

LŞAM-nə əsasən, hər hansı şikayət LŞAM-nin icrası qaydalarında təsbit olunan vaxt cədvəllərinə uyğun olaraq təqdim olunmalıdır. Əgər siz öz şikayətinizin qanuniliyinə əmin deyilsinizsə, onda siz kömək almaq məqsədilə LŞAM mütəxəssisi ilə əlaqə saxlaya bilərsiniz (pcm@ebrd.com ünvanlı e-poçtla).